**UOT 730**

**Tural Yusif oğlu Ağayev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: tural.agayev.94@mail.ru**

# AZƏRBAYCANDA KİÇİK FORMALI HEYKƏLTƏRAŞLIĞIN İNKİŞAFINDA XALQ RƏSSAMI ARİF QAZIYEVİN ROLU

**Xülasə:** Xalq rəssamı Arif Qazıyevin yaradıcılığında kiçik formalı heykəltəraşlıq nümunələri xüsusi yer tutur. Bu səbəbdən də onun yaradıcılığı XX əsr Azərbaycan kiçik heykəltəraşlıq plastikasında xüsusi izlər buraxmışdır. Bu izlər Azərbaycanın təsviri sənət sahəsində inkişafa təkan verərək gələcək nəsillərin yaradıcılığında örnək rolunu oynayır. Məqalədə heykəltəraşın yaradıcılığının başlanğıc dövründən son dövrünə kimi kiçik dəzgah heykəltəraşlıq nümunələrini kompozisiya cəhətdən necə zəngin dəyişikliyini ön plana çəkir.

**Açar sözlər:** heykəltəraşlıq, plastika, kiçik, forma, janr, kompozisiya, üslub

Azərbaycanda heykəltəraşlıq bədii yaradıcılıq ənənələrinə və bir çox tarixi xüsusiyyətlərinə görə öz mənşəyinə bağlıdır. Tarixi araşdırmalara əsasən bu dəlillər son yarım əsrdə araşdırılaraq ərsəyə gətirilmişdir. Nəzərə alsaq ki, bir çox səbəblərdən xarici qüvvələrin yanlış və saxta məlumatları hansı ki, onların guya orta əsrlərdə şərqdə heç bir heykəltəraşlıq əsərlərinin olmamağı barədə uzun illər boyu şayiələr yayılmışdır. Son yarım əsrdə aparılan tədqiqatlar isə bu şayiələrin tamamilə saxta olduğunu sübut etmişdir. Tədqiqatlar nəticəsində Azərbaycan heykəltəraşlıq nümunələrinin ta qədim zamanlardan bu günümüzə kimi irsən gəlib çıxdığı göz önündədir [1, s.24]. Həmin təsirlər XX əsr Azərbaycan heykəltəraşlığında da öz izlərini buraxmışdır. Bu xüsusi ilə XX əsr kiçik formalı heykəltəraşlıq nümunələrində daha qabarıq şəkildə özünü büruzə verir.

SSRİ dövründə XX əsr Azərbaycan heykəltəraşlığında sənətşünaslar tərəfindən aparılmış tədqiqatlar daha çox monumental sənət üzrə yer tuturdu. Bu səbəbdən də kiçik formalı heykəltəraşlıq nümunələri kənarda qalırdı, sonrakı dövrlərdə müasir sənətşünaslarımız tərəfindən XX əsr Azərbaycan heykəltəraşlığında kiçik formalı plastika nümunələri daha çox araşdırılmağa başladı. Bu sahədə S.Sadıqova, S.Sadıqov [2], V.Bağırov [1] və başqa sənətşünaslar bir çox məqalələr və kitablar yazmışdırlar. Burada əsas məqsəd təkcə kiçik heykəltəraşlıq nümunələri deyil, bütövlükdə Azərbaycan mədəniyyət tarixində təsviri sənətin nə qədər zəngin olmasına yönəlmişdir.

XX əsr Azərbaycanda böyük siyasi dəyişikliklərin olması təkcə iqtisadiyyat və siyasətdə deyil, həmçinin mədəniyyətə də böyük təsirlər edərək nəzərə çarpacaq qədər dəyişikliyə səbəb olmuşdur [3, s.25]. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması milli adət-ənənələrin yenidən bərpa olunmasına təkan verdi. Baxmayaraq ki, kiçik zaman çərçivəsindən sonra Azərbaycan yenidən Rusiya imperiyasının əsarəti altına düşəcəkdir. Lakin bu təsir SSRİ-nin dağılma dövrünə kimi özünü qorumağa çalışacaq və müasir dövr Azərbaycan incəsənət tarixində bünövrə rolunu oynayacaqdır.

Azərbaycan heykəltəraşlıq irsi eramızdan əvvəl 12-ci minillikdən başlayaraq bu günümüzə kimi gəlib çatmışdır. Bu təsirlər nə qədər itirilməyə çalışılsa belə, sənətkarlarımız tərəfindən zaman-zaman bir-birlərinə ötürülərək heykəltəraşlığın inkişafında baza rolunu oynadı. XX əsrə nəzər yetirsək monumental heykəltəraşlıq akademizminə söykənsə belə, kiçik formalı heykəltəraşlıqda isə milli təsirləri rahatlıqla görə bilirik. XX əsrin ortalarından sonra Azərbaycan heykəltəraşlığı daha da inkişaf etməyə başlayır. Bu dövrdə Ömər Eldarov, Tokay Məmmədov, Fuad Salayev, Arif Qazıyev, Akif Əsgərov, Arif Süleymanov və b. kimi heykəltəraşlar təkcə monumental heykəltəraşlıqda deyil, həmçinin kiçik formalı heykəltəraşlıqda da dərin izlər buraxmışdılar [4]. Sovet dönəmində rus ideologiyasını bir növ yeritmək üçün daha çox müharibə mövzulu və fəhlə kəndli ideologiyasını daşıyan abidələrə üstünlük verirdilər. Lakin buna baxmayaraq Azərbaycanın peşəkar heykəltəraşları bizim bir çox milli irsimizdən olan dahi şəxsiyyətlərimizin abidələrini işləməyə müvəffəq olmuşdular. Lakin heykəltəraşlarımız ən çox rahatlıqlarının dəzgah heykəltəraşlığında tapa bilirdilər. Bunlara misal olaraq Arif Qazıyevi göstərə bilərik. Dəzgah heykəltəraşlıq yaradıcılığında ilk öncələr portretlərə üstünlük versə də, 70-ci illərdən etibarən sırf milli irsimizi öz əsərlərində yaşadırdı. Onun dəzgah heykəltəraşlıq nümunəsi olaraq 1970-ci ildə işlədiyi “Qafqaz Qartalları” kompozisiyasında rahatlıqla görə bilirik. Nəzərə alsaq ki, “Qafqaz Qartalları” üç çobanın bir-birlərinə kürəklərini söykəməsi halında təsvir edilib və çobandan daha çox Azərbaycanın keçmiş bəylərinə bənzəyirdilər. Belə bir kompozisiyanı Azərbaycan Xalq rəssamı Arif Qazıyev Leninin 100 illik sərgisində sərgiləmişdir. Heykəltəraş bu heykəlin sadəcə Azərbaycanın zəhmətkeş insanlarını təsvir etməyə çalışdığını söyləsə də, arxada daha gizli məna daşıyan kompozisiya mövcud idi. Bu heykəlin əsl mənası azərbaycanlıların kürəklərinin özlərindən başqa heç kimə söykəməməyə və yalnız özümüzə güvənməyə bir gizli simvol idi. Belə bir kompozisiyalara misal olaraq 1970-ci ildə işlənmiş “Cəngi” dəzgah heykəltəraşlıq nümunəsini misal göstərə bilərik. Kompozisiyada 4 qafqazlı əlləri bir-birinin çiynində Yallı rəqsi oynayaraq təsvir edilmişdir. Bu kiçik heykəltəraşlıq nümunəsi əslində abidə olmalı idi. Lakin son anda rus hökuməti buna icazə vermədi. Çünki bu heykəl vasitəsi ilə

insanların milli ruhu oyanmış olacaqdı. Heykəltəraş 90-cı illərdə öz kiçik plastikasında milli ruhu daha da qabartmağa başlayır. Bu təsir demək olar ki, Azərbaycan heykəltəraşlığında bütün sənətkarlara güclü şəkildə özünü göstərir. 1988-ci ildən etibarən başlanan erməni separatçılarının qırğınları, həmçinin Azərbaycanın milli oyanışı, azadlıq əzmi mədəniyyətdə də dərin izlər qoydu.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent S.Sadıqov Xalq rəssamı Arif Qazıyev haqqında qeyd edir ki "Arif Qazıyevin yaradıcılığında yeni keyfiyyətlər, təzə məziyyətlər özünü göstərməyə başlayır. Bu əsərlərdə mənəvi təmizlik, ülvilik və fəlsəfi mahiyyətinin açılmasına daha çox fikir verir. Plastik ifadə, bədii ümumiləşdirmə heykəltəraşın "Tarla gözəli", "XX əsr", "Haçan qaldıracağam", "Dəhşət", "Oyanış", "Bumeranq" və s. əsərlərinə də xasdır. Bu işlərin hər birinin respublika və xarici sərgilərdə müvəffəqiyyət qazanması Arif Qazıyevin heykəltəraşlıq məktəbində öz dəsti xəttinin olmasını sübut etmişdir" [2, s.13].

Araşdırmalara görə, incəsənətlə bağlı insanlar bir hadisəni öncədən görmə gücünə malik olurlar. Buna fakt olaraq Arif Qazıyevin 1980-ci ildə işlədiyi dəhşət əsərini göstərə bilərik. Əsərdə iki şəxs bir-birilərini boğurlar. Sadəcə bu təsvir dəhşətli formada plastik şəkildə göstərilmişdir. Bu əsərin sərgilənməsinə qətiyyən icazə verilməmişdir. Nəticədə həmin il Arif Qazıyev ümumiyyətlə sərgidə iştirak etməmişdir. Bu kompozisiya əslində qarşıdan gələn dəhşətli hadisələrdən xəbər verirdi.

Ermənilərin xalqımıza qarşı törətdikləri kütləvi qırğınlar dövründə Arif Qazıyev daha da hissə qapılır. Bu dövrlərdə o, "Xocalı Qadın", "Öpüş", "Kamanın Naləsi" və s. kimi kiçik heykəltəraşlıq nümunələri ərsəyə gətirir. Bu təsirdən heykəltəraş 90-cı ilin ortalarından sonra çıxmağa çalışır. Bu dövrlərdə Arif Qazıyevin yaradıcılığında daha çox animalistik janrda işlənmiş kiçik dəzgah heykəltəraşlıq nümunələrini görə bilirik. Bu heykəllərə misal olaraq 1996-cı ildə işlənmiş "Dəvəquşular", 1997-ci ildə işlənmiş "Eyfel" və s. kimi heykəltəraşlıq nümunələrini görə bilirik.

XXI əsrdə Azərbaycan heykəltəraşlığında daha çox müasir izlərə rast gəlirik. Bu cür təsirlərə Arif Qazıyevin heykəltəraşlıq nümunələri kimi, "Uçuş", "Qarabağ Şikəstəsi", "Tors" və s. kiçik heykəltəraşlıq nümunələrini misal göstərə bilərik. Bu heykəllər daha çox dekorativ üslubda hazırlanıb və heykəltəraşın müasir dövrlə uyğunlaşmasının göstəricisidir. Dekorativ işlərlə yanaşı, heykəltəraş həmçinin "Quşbaz", "Yunan güləşi", "Nizami" və s. kimi heykəllərində realistik kompozisiyalar da yaratmışdır. Heykəltəraş material və texnologiya cəhətindən bir çox materiallardan istifadə etmiş və texnikaları öz əsərləri üzərində tətbiq etmişdir.

Tişə ustalarının yaşlı nəslinin nümayəndəsi olan Xalq rəssamı Arif Qazıyevin müstəqillik illərinə təsadüf olunan yaradıcılığında dəzgah

heykəltəraşlığı nümunələri çoxluq təşkil edir. Onların arasında obrazlı görkəm almış portretlər də az deyil. Bu qəbilədən olan əsərlər sırasında "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin portreti" (2008), "Azərbaycanın ilk peşəkar memarı Zivərbəy Əhmədbəyov" (1997), "Qaçqın ana" (2000), "Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun portreti" (2005), "Məhəmməd Füzuli" (1996), "Nizami Gəncəvi" (2014) və s. əsərlərin adını çəkmək olar. Öncə demək lazımdır ki, adlarından da göründüyü kimi, heykəltəraşın diqqətini çəkən bu şəxslər haqqında cəmiyyət kifayət qədər məlumata malikdir. Bu şəxsiyyətlərin bir çoxunun obrazlı təsviri sənət ustalarının diqqətini cəlb etmiş, onların bu vaxta qədər müxtəlif janrlarda obrazları yaradılmışdı. Odur ki, bu adamların obrazlarına hər yeni müraciət hər bir yaradıcıdan duyulası hazırlıq tələb edir. İlk növbədə bu hazırlıq işlənmiş mövzuların yeni, əvvəlkilərdən fərqli bədii şərhinin tapılmasına xidmət etməlidir, əks halda nələrinsə təkrarı itirilən vaxtdan başqa bir şey olmayacaqdır. Bu mənada A.Qazıyevin ərsəyə gətirdiyi portretlərdə yuxarıda adları çəkilən şəxsiyyətlər tamaşaçı gözü qarşısında özündə gerçəkçi ikonoqrafik əlamətləri daşıyan, amma bədii şərhinə görə canlı və inandırıcı qəbul olunan plastik tutumda görünürlər. Bununla belə tişə ustası bu portretlərdə obrazların həyat və yaradıcılıqlarından qaynaqlanan forma-biçimə, plastik axıcılığa, məntiqli cizgi əlavələrinə malikdirlər.

Xalq rəssamı Arif Qazıyevin yaradıcılığında gördüyümüz kimi əksər üslub və janrlardan istifadə olunub. Bu cəhətdən heykəltəraş yeni nəslin formalaşmasında və yeni sənətşünasların püxtələşməsində bir çox xalq rəssamları kimi əsas baza rolunu oynamışdır. Bu səbəbdən də Arif Qazıyevin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və sonradan Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında yetişdirdiyi tələbələr hal-hazırkı günümüzdə tanınmış incəsənət nümayəndələri olub, hal-hazırda da onlar yeni nəsil incəsənət nümayəndələrini yetişdirirlər. Arif Qazıyevin yetişdirdiyi sənətkarlar onun hələ də əl izlərini öz yaratdıqları əsərlərdə yaşadırlar.

## Ədəbiyyat siyahısı:

1. Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı - XX əsr. Bakı: 2004.
2. Sadıqov S. Heykəltəraş Arif Qazıyevin yaradıcılıq dünyası // Kaspi qəzeti. 2011. 22 aprel. s.13
3. Səfərli-Ağasoy H. Müstəqillik dövründə Azərbaycanın dəzgah heykəltəraşlığı: sənətşün. üzrə fəls.d-ru e.dər.al. üçün təq.ed. dis-nın avtoreferatı: Bakı: 2016.
4. Əliyev Z. Heykəltəraş. // Panorama. 1997. 3 yanvar.

**Турал Юсиф оглы Агаев**

## РОЛЬ НАРОДНОГО ХУДОЖНИКА АРИФА ГАЗИЕВА В РАЗВИТИИ МАЛОЙ ФОРМЫ СКУЛЬПТУРЫ В АЗЕРБАЙДЖАНЕ

**Резюме:** В творчестве народного художника Арифа Газиева образцы небольших скульптурных работ занимают особое место. Творчество Арифа Газиева оставило особый след в азербайджанской скульптуре XX века. Его работы в этой области служат примером для творчества будущих поколений, стимулируя развитие этой области изобразительного искусства Азербайджана. В статье на первый план выдвигаются композиционные изменения образцов малой станковой скульптуры от начального до последнего периода творчества скульптора.

**Ключевые слова:** скульптура, пластика, малые формы, жанр, композиция, стиль.

**Tural Yusif oghlu Aghayev**

## THE ROLE OF PEOPLE’S ARTIST ARIF GAZIYEV IN THE DEVELOPMENT OF SMALL SHAPED SCULPTURE IN AZERBAIJAN

**Summary**: The small shaped sculptural samples occupy a special place in the activity of People’s Artist Arif Gaziyev. For this reason, his activity had put special signs in the small sculptural plasticity of the $20^{th}$ century Azerbaijan. These signs play an example role in the activity of future generations, giving impetus to the development in the field of fine art of Azerbaijan. In the article the rich changings of the small examples of easel sculpture from the initial period to the last period of the sculptor’s activity are shown.

**Key words:** sculpture-study, plasticity, small, form, genre, composition, style

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**